BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2005

# TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNDƏ KIBRIS MƏSƏLƏSİ (1950-1974)

R.B.ASLANOV

1571-ci ildən Osmanlı imperatorluğunun nüfuzunda olan Kıbrıs adası 1878-ci il Berlin müahidəsinə əsasən İngiltərə hökumətinin idarəsinə verilmişdi. Birinci dünya savaşı illərində Türkiyənin Almaniya tərəfindən müharibəyə qoşulması və onun məğlubiyyəti nəticəsində Kıbrısı İngiltərə öz müstəmləkəsinə çevirdi. 1925-ci il martın 10-da İngiltərə adanı Tac Sömürgəsi (müstəmləkəsi) elan etdi. XX əsrin 20-30-cu illərində Kıbrıs Yunanları (rumlar) Yunanıstan hökumətinin təzyiqi ilə İngiltərədən adanı Ellada ölkəsinə birləşdirmək (enosis) tələblərini irəli sürdülər. Lakin İngiltərə hökuməti bu tələbi rədd etdi. İkinci dünya savaşından sonra rumlar Yunanıstanın İngiltərə ilə birgə müharibədə iştirakını əsas göstərərək adanın enosis məsələsini yenidən gündəmə çıxardılar. Rumlar bu birləşmədə türk azlığını nəzərdə belə tutmurdu. Böyük Britaniya valisinin 1947-ci ildə bələdiyyələr haqqında verdiyi qanuna əsasən 12 rumlu və 7 türkün təmsil olunduğu özünüidarə orqanı yaradılmalı idi (1).

Rumlar enosisi həyata keçirmək üçün türklərin özünüidarə orqanlarında təmsil olunmasının əleyhinə çıxaraq Yunanıstanla birləşməyə üstünlük verdilər. 1948-ci ildə ingilislərin təklif etdiyi muxtariyyət haqqında Konstitusiyaya da rədd cavabı verdilər (2).

Kıbrıs rumları yepiskop Makariosun liderliyi ilə enosis proqramını həyata keçirmək üçün həm beynəlxalq aləmdə, həm də Yunanıstanın özündə geniş təbliğata başlamışdılar. Adadakı türklərin durumunun ağır olduğunu nəzərə alan Türkiyənin baş naziri A.Menderes 1952-ci il noyabrın 28-də Afinaya səfəri zamanı Yunan hökuməti ilə Kıbrıs adasındakı siyasi vəziyyəti də müzakirə etmişdi (3). Lakin Yunanıstan hökuməti enosisi dəstəklədiyindən heç bir pozitiv nəticə əldə olunmadı. Kıbrıs məsələsini tək İngiltərə ilə həll etmək üçün Yunanıstan rəhbərliyi ilə Makarios İngiltərə ilə danışıqlara başlasa da heç bir nəticə əldə etmədilər. Bundan sonra Makariosun rəhbərliyi ilə 1952-ci ildə yaradılmış terrorçu EOKA təşkilatı adada türklərə qarşı terrora başladı.

Rumların və Yunanıstan hökumətinin fəaliyyətini dərindən öyrənən Türkiyə hökuməti 1954-cü ildə ilk dəfə Kıbrıs haqqında bəyanat verərək adadakı mövcud durumun Yunanıstanın təqdim etdiyi qaydada dəyişdirilməsinin qeyri-mümkünlüyünü rəsmi şəkildə açıqladı (4). Bu bəyanatda Türkiyə hökuməti Kıbrısın mövcud

durumunun dəyişdirilməsinə etiraz edərək 1878-ci ildə itirilmiş mövqelərinin və qanuni haqlarının bərpa edilməsini tələb etdi.

Yunanıstan hökumətinin Kıbrıs məsələsini təkbaşına həll etmək yönümündə fəaliyyəti xeyli artmışdı. Bundan narahat olan Türkiyə ictimaiyyəti adadakı vəziyyəti daha şiddətlə müzakirə etməyə və hökumətdən təsirli tədbirlər görməyi tələb edirdi. Kıbrıs məsələsi TBMM-nin də gündəlik müzakirəsinə çevrilmişdi.

Yunanıstan hökuməti Kıbrıs məsələsini öz xeyrinə həll etmək ümidi ilə Birləşmiş Millətlər Təşkilatının müzakirəsinə çıxara bildi. Yunanıstan nümayəndəsinin Kıbrısa müstəqillik verilməsi tələbinə qarşı Türkiyənin BMT-dəki təmsilçisi Səlim Sarpər Yunanıstanın siyasətinin mahiyyətinin enosis olduğunu vurğulayaraq onun Südet vilayətinin 1938-ci ildə anşlüsu ilə eyni olduğunu açıqladı. Səlim Sarpər Türkiyənin Kıbrıs mövzusunda müzakirələrdə tərəflərdən biri olaraq qəbul edilməsini tələb etdi. Bundan sonra Türk-Yunan münasibətləri dərin böhrana düşdü. Bunu NATO daxili böhran kimi qiymətləndirdi.

Böhranı nizama salmaq üçün İngiltərə hökuməti adadakı hər iki icmanın hüquqlarını təmin edəcək, hər iki icmanın öz müqəddəratını sərbəst müəyyən etməsi planını müzakirəyə çıxardı. Rumlar bu planın əleyhinə çıxdı (5). Türkiyənin baş naziri A.Menderes jurnalistlərə müsahibələrinin birində Kıbrısı Anadolunun davamı kimi qiymətləndirərək, adanın güvənliyinin dəyişdirilməsi ortaya çıxarsa onun Türkiyəyə birləşdirilməsi zəruriliyini söyləmişdi (6). İngiltərənin baş naziri İden Kıbrısın Yunanıstana verilməsinə Türkiyə heç vaxt razılıq verməyəcəyini açıqca anlatmışdı (7). Yunanıstan hökuməti də bu durumu anladığından Türkiyə ilə dialoqa girmək məcburiyyətində qaldı. 1956-cı ildən İngiltərənin vasitəçiliyi ilə başlanan danışıqlar zamanı elə bir ciddi razılıq eldə edilmədi. Kıbrısın idarə olunması üçün İngiltərə hökumətinin Mak Milan planı tam kompromiss variant kimi 1958-ci ilin mayında Türkiyə və Yunanıstan elçilərinə bəyan edildi. Mak Milan planına əsasən adadakı əhali və ayrıca İngiltərə, Yunanıstan və Türkiyə arasında bir ortaq idarəçilik yaradılması nəzərdə tutulurdu. Belə ki, adanın sülh və əmin-amanlıq şəraitində yaşaması üçün Yunanıstan və Türkiyə hökumətləri əməkdaşlıq edərək, adadakı icmaların muxtariyyət fəaliyyətinə kömək etməli idi. Adanın statusu 7 il müddətində dəyişilməz qalmalı idi (8). Adada fövqəladə tədbirlər aradan qaldırılandan sonra daxilli idarəçilik yerli əhalinin ixtiyarına verilməli idi (9). Kıbrısın rum liderləri və bir qədər sonra Yunanıstan hökuməti bu planı rədd etdilər. Türkiyə bu planı üç dövlətin müzakirəsi üçün əsas olaraq qəbul etdi. Lakin bu planın təkmilləşməyə ehtiyacı olduğundan onu bütövlükdə qəbul etmədi. Kıbrıs məsələsini müzakirə etmək üçün Türkiyə, Yunanıstan və İngiltərə xarici işlər nazirləri 1958-ci ilin dekabrında Parisdə bir araya gəldilər. Yunanıstan bu görüşdə enosisi gündəliyə salmayacağına söz verdi. Paris görüşlərində belə qərara alındı ki, Yunanıstan və Türkiyənin baş nazirləri səviyyəsində müqavilə imzalansın. 1959-

cu il fevralın 11-də Türkiyənin baş naziri A.Menderes və Yunanıstanın baş naziri Karamanlis 27 maddəlik Sürix müqaviləsini imzaladılar. Burada qərara alındı ki, müqaviləni adanın türk və yunan icmalarının təsdiq etməsi üçün Londonda ikinci müqavilə imzalansın. İki günlük müzakirədən sonra 1959-cu il fevralın 19-da türk və yunan icmaları da Londonda Sürix andlaşmasına imza atdılar (10). Sürix və London müqaviləsinə əsasən 1960-cı il avqustan 16-da müstəqil Kıbrıs Cümhuriyyətinin yaranması elan edildi. Həmin gün adaya 650 nəfərlik türk və 950 nəfərlik yunan əsgərləri çıxarıldı (11). Beləliklə, Türkiyə hökuməti Yunanıstanın Şelf – determinasyon planlarını puça çıxararaq Kıbrıs türklərinin öz hüquqlarını müdafiə üçün qarant olmuş oldu. 1960-cı il Konstitusiyasına uyğun olaraq, ilkin seçimlər zamanı EOKA-nın yaradıcılarından, enosisin müəlliflərindən biri olan baş yepiskop Makarios – prezident və türk icmasının lideri Fazil Küçük prezidentin müavini seçildi. Federasiya şəklində yaradılan Kıbrıs dövlətinin ömrü uzun sürmədi. Adanın müstəqillik əldə etməsindən dərhal sonra enosis tərəfdarları türk xalqının özəl hüquqlarına qarşı fəaliyyətə başlamışdı. Prezident Makarios 1962-ci il sentyabrın 4-də Panaya kəndindəki çıxışında açıqca türklər əleyhinə belə demişdi «Ellinizmin qorxunc bir düşməni olan türk irqinin bir bölümünü təmsil edən bu kiçik türk toplumu xaric edilmədən, EOKA qəhrəmanlarının vəzifəsi bitmiş sayılmaz» (12). Bununla, Makarios türk toplumuna qarşı soyqırıma başlamaq işarəsi vermiş oldu. Adanın müstəqillyndən 3 il sonra Makarios türklərə bir memorandum göndərərək onların təməl hüquqlarını konstitusiyadan çıxartmaq istədiyini bildirmişdi. Makarios türklərdən cavab almadan əvvəlcədən hazırlanmış Akritas planını həyata keçirməyə başlamışdı. 1963-cü il dekabrın 23-25-də türklərə qarşı geniş hücum təşkil edilmiş, 103 türk kəndi dağıdılmışdı. Uşaqlar, qadınlar, qocalar vəhşicəsinə qətlə yetirildi. Əsl genosid siyasəti həyata keçirilməkdə idi. Türk xalqını qorumaq və adada sabitliyi bərpa etmək üçün Türkiyə hökuməti qarant ölkələrdən birgə müdaxilə etməyi tələb etdi. Lakin nə Britaniya, nə də Yunanıstan Türkiyə hökumətinin tələbinə cavab vermədi. Buna cavab olaraq Türkiyə hökuməti Qarant müqaviləsinin 4-cü maddəsini (13) əsas götürərək 1963-cü il dekabrın 25-də Nikosiya üzərində xəbərdarlıq uçuşları etdi. Türkiyənin təktərəfli müdaxilə qərarına gəlməsi qarant ölkələri dərhal fəaliyyətə başlamağa məcbur etdi. Bunun nəticəsində İngiltərə və Yunanıstan kollektiv müdaxiləyə razılıq verdi və ingilis komissarının rəhbərliyi ilə «Siyasi əlaqələndirmə Komitəsi» yaradıldı. Makariosun dar görüşlü siyasəti nəticəsində Kıbrıs respublikasının yıxılmasının əsası qoyuldu və regionda siyasi böhrana yol açıldı. Türkiyənin Kıbrıs türklərinin haqlarını qorumaq üçün qəti tədbirlər görmək planlarından və ada üzərində Türkiyə təyyarələrinin uçuşları Yunanıstanla Türkiyə arasında vəziyyəti daha da kəskinləşdirdi. Bu həmçinin NATO daxilində ciddi böhran demək idi. Bu böhranı aradan qaldırmaq üçün ABŞ prezidenti L.Conson 1964-cü il iyunun 5-də

Türkiyənin baş naziri İ.İnönüyə tövsiyə xarakterli məktub göndərərək münaqişəyə cəlb olunmuş tərəfləri diplomatik danışıqlara dəvət etmişdi (14). Əslində bu məktub hər iki tərəfi yox, Türkiyəni hədələmək və onu Kıbrıs məsələsindən uzaqlaşdırmaq cəhdi idi. Buna görə də həmin məktub Türkiyə hökuməti və ictimaiyyəti tərəfindən ABŞ-la, həm də NATO çərçivəsində qarşılıqlı əlaqələrə zidd mövqe kimi qiymətləndirildi. Kıbrıs məsələsində NATO daxili böhrandan yararlanmağa çalışan Sovetlər Birliyi aşkarda enosisə qarşı çıxış etsə də gizlicə Makariosun siyasətini müdafiə edərək, adaya tam müstəqillik verilməsi və qarant ölkələrin himayəsinin ləğv olunması haqda bəyanat verdi (15). Bununla Sovetlər İttifaqı Kıbrısın müstəqilliyinin müdafiəçisi kimi çıxış edərək Aralıq dənizində özünə strateji mövqe qazanmağa çalışırdı. Bu siyasəti Dünya birliyi ölkələri də, o cümlədən Türkiyə hökuməti də düzgün qiymətləndirərək cavabsız qoydu. 1964-cü ilin əvvəlində ABŞ prezidentinin Kıbrıs üzrə nümayəndəsi D.Açeson Kıbrıs probleminin həlli haqda planı bəyan etdi. Plana görə Kıbrısın Yunanıstana birləşdirilməsi, əvəzində Karpas yarımadasında Türkiyənin himayəsində iki-üç türk kontonu yaradılmalı, həmçinin Anadolu sahillərinə yaxın bir yunan adası Türkiyəyə verilməli idi. Türkiyə hökuməti bu planı rədd etdi (16). 1964-cü ilin əvvəlində Nikosiya və digər rayonlarda rumlular yenidən türk xalqı üzərinə hücuma başladılar. Türkiyə hökuməti Kıbrısa təktərəfli hava uçuşlarına başlamağa məcbur oldu. Bu Yunanıstanla Türkiyənin arasında onsuz da gərgin olan münasibətləri daha da ağırlaşdırdı. Böyük dövlətlərin və BMT-nin qəti tədbirləri sayəsində Türkiyə-Yunanıstan toqquşmasının qarşısı alındı. Kıbrısa Qalo Plasanın başçılığı ilə BMT-nin nümayəndəsi göndərildi. Plasanın planına əsasən konfliktə cəlb olunmuş tərəflərin nöqteyi-nəzəri saxlanmaqla unifikasiya şəklində dövlət quruluşu yaradılması təklif edilirdi. Türkiyə Plasanın öz səlahiyyətlərini aşdığını bəyan edərək bu planı qəbul etmədi. Bu böhranı aradan qaldırmaq üçün BMT-nin vasitəçiliyilə Rum-Türk liderlərinin görüşlərinin keçirilməsi qərara alındı. 1968-ci ildən 1971-ci ilə qədər türklərin lideri R.Denktaşla rum lideri Kleridis arasında uzun müddətli danışıqlar başlandı. Lakin rumların əsas məqsədi enosisi həyata keçirmək üçün beynəlxalq dəstək almaq idi. Bu səbəbdən də danışıqlar bir nəticə vermədi. 1974-cü ildə Yunanıstan və Rum hərbiçiləri Kıbrısın Yunanıstana birləşdirilməsinin vaxtının çatmasını düşünərək hərbi çevriliş yolu ilə enosisə nail olmaq planını həyata keçirmək üçün fəaliyyətə başladılar. Hərbçilər 1974-cü il iyul ayının 15-də çevriliş edərək Makariosu devirdilər və enosisi həyata keçirmək üçün fəaliyyətə başladılar. Türk xalqının üzərini yenidən soyqırım təhlükəsi aldı. Dövlət çevrilişinin rəhbəri Sampson türk xalqına qarşı hərəkətə başladı. Kıbrıs türklərinin yeganə ümidgahı Türkiyə hökuməti üçtərəfli andlaşmanı rəhbər tutaraq, iyulun 20-də adaya desant çıxartdı. Bu, Kıbrıs türklərin kütləvi qırğından qorudu və Kipr türklərinin müqəddəratını təyin etməsi üçün imkan yaratmış oldu. Türkiyə hökuməti

Genevrədə 1974-cü il iyulun 30-da BMT-nin nəzarəti altında İngiltərə-Türkiyə-Yunanıstan konfransında Kıbrıs adasının icmalar üzrə coğrafi bölgüsünə nail oldu. Rumlar bu barışığı ikinci Cenevrə konfransında rədd etdi və hərbi əməliyyatlara başladılar. Türkiyə hava qüvvələri yenidən 1974-cü il avqustun 14-də Rum-Yunan qoşunlarına zərbələr endirdi. 1974-cü il iyun-avqust böhranından sonra da Türkiyə hökumətinin Kıbrıs məsələsinin 1974-cü ildə Türkiyənin iştirakı ilə keçirilən bütün müzakirələrində Yunanıstanın və Rumların qeyri-konstruktiv mövqeyi nəticəsində adanın birləşməsi məsələsi baş tutmadı. Yalnız bütün müzakirələrin bəhrəsiz nəticəsindən sonra adanın türk icması Şimali Kıbrıs türk federasiyasının yaradılması haqda bəyanat verdilər.

## ƏDƏBİYYAT


1. Alasya Fikret H.Kuzey Kıbrıs cumhuriyyeti tarihi. Ankara. 1987. s. 10.
2. Alasya Fikret H.Kuzey Kıbrıs cumhuriyyeti tarihi. Ankara. 1987. s. 11.
3. Ahmet C.Gazioğlu. Kıbrıs sorunu ve bağımsızlık. Lefkoşa. 1986. s. 32-33.
4. Ahmet C.Gazioğlu. Kıbrıs sorunu ve bağımsızlık. Lefkoşa. 1986. s. 37.
5. ООН в документах за 60-ые годы. М., 1961. с. 179.
6. Ahmet C.Gazioğlu. Enosise karşı taksim. s. 88.
7. Ahmet C.Gazioğlu. Enosise karşı taksim. s. 92.
8. Alasya Fikret. Göstərilən əsəri. s. 16-17.
9. Alasya Fikret. Göstərilən əsəri. s. 16-17.
10. Akbulut İlhan. Kuzey Kıbrıs tarihi ve tarihi eserleri. Girne. 1998.
11. Akbulut İlhan. Kuzey Kıbrıs tarihi ve tarihi eserleri. Girne. 1998.
12. Yolak Seyit. 1571-den Günümüze Kıbrıs Türk Yonetimler. Lefkoşa. 1989. s. 60.
13. Alasya F. Göstərilən əsəri. s. 32.
14. Milletlerarası münasibetler türk yıllığı. Ankara, 1966 № 7, s. 139, SSSR «Турция» М. 1981, s. 218.
15. Поцхверия Б.М. Внешняя политика Турции в 60-х начале 80-х годов XX века. М. 1986. с. 147.
16. Поцхверия Б.М. Внешняя политика Турции в начале 60-х начале 80-х годов XX века. М. 1986. с. 147., газета «Правда». 17.12.1971.


## КИПРСКИЙ ВОПРОС ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ТУРЦИИ (1950-1974)


**Р.Б.АСЛАНОВ**



### АННОТАЦИЯ

С момента возникновения Кипрской проблемы, она была предметом особых вопросов во внешней политике Турции. В 60 – начале 70-х гг. этот вопрос стал еще более опасным, который мог принести к геноциду турецкой общины Кипра. В результате вмешательства Турции турецкая община была спасена от уничтожения.